UOT 94 "04/15"

# KİPRİN TALEYİNDƏ "BARIŞ HƏRƏKATI"NIN ROLU VƏ BÖYÜK BRİTANİYA

**S.C.HEYDƏROVA**
***Bakı Dövlət Universiteti***
***s_heydarova@mail.ru***

*Məqalədə Kiprdə Barış hərəkatının tarixi 1974-cü il iyulun 20-də yunanların Kipr türklərinə qarşı həyata keçirdiyi etnik təmizləmə və qətliamları dayandırmaq üçün Türkiyənin adaya hərbi heyət yeritməsi ilə qoyulub. Türkiyə ordusunun "Barış hərəkatı" əməliyyatı Kipr türklərinin öz tarixi torpaqlarında yaşamaq haqqını təmin etməklə bərabər, adanın ikiyə bölünməsini də faktiki olaraq başa çatdırmış oldu. Həmin tarixdən etibarən adanın cənub hissəsi yunanların, şimal hissəsi isə türklərin nəzarəti altındadır. "Yaşıl xətt"də isə BMT-nin sülhməramlı qüvvələri yerləşir.*

**Açar sözlər:** Kipr, BMT, Barış hərəkatı, qiyam, hərbi xunta

XX əsrin 70-ci illərinin əvvəllərində Kiprdə baş verən hadisələr Türkiyəni və eləcə də dünya ictimaiyyətini çox narahat edirdi. Yüksək rütbəli yunan hərbi rəhbərlərinin fasiləsiz keçirilən müşavirələrində Kipr hökuməti əleyhinə 1974-cü il iyulun 15-də təşkil olunmuş qəsdin köklərinin təkcə Afinaya deyil, hətta NATO-ya gedib çıxdığı bildirilirdi.

Türkiyə prezidenti F.Korutürk Türkiyənin Kiprə müdaxiləsi məsələsi ilə bağlı iclas çağırılması barədə qərar qəbul etdi. Türkiyənin baş naziri B.Ecevit adadakı yunan işğalının qarşısını almaq məqsədilə müdaxiləyə qərar verdikdən sonra digər bir təminatçı ölkə olan Böyük Britaniya ilə birlikdə müdaxilə etmək məqsədilə görüş keçirmək üçün 1974-cü il iyulun 16-da Böyük Britaniyaya səfər etdi. Lakin Böyük Britaniya birgə müdaxilədə iştirak etməyəcəyini bildirdi.

B.Ecevit iyulun 17-də keçirilən görüşdə baş nazir H.Vilson və xarici işlər naziri C.Kallagendən daha az qan tökülməsi üçün ingilis qoşunlarının gətirilməsini xahiş etsə də, bu xahiş rədd edildi [4, 129; 19]. Böyük Britaniya təminatçı dövlət öhdəliklərini yerinə yetirməkdən imtina etdi.

B.Ecevit "Ayişə qızımı tətilə göndərin" parolu ilə türk silahlı qüvvələrinin adaya çıxarılmasına icazə verdi. Ayişə Türkiyənin xarici işlər naziri Turan Günəşin qızının adı idi. Hökumətin qərarına uyğun olaraq baş qərargah

rəisi S.Sancar ordunun adaya desant çıxarmasını əmr etdi. İyulun 20-də yunanların gözləmədiyi çətin qayalıq yerdən adaya türk ordu hissələrinin desantı çıxarıldı. Əməliyyatda türk hərbi hava və hərbi dəniz qüvvələri də iştirak edirdi. Həmin gün Ecevit və Sancar radio ilə çıxış etdilər. Ecevit «təkcə türklərə deyil, yunanlara da sülh gətirmək üçün gedirik» dedi. Ecevitin fikrincə, Türkiyə MİT-i Kipr hadisələri ilə bağlı əhəmiyyətli məlumat verməmişdi. Barış hərəkatı baş nazirin özünün, Xarici İşlər Nazirliyinin əldə etdiyi açıq kəşfiyyat məlumatları, diplomatik təmaslar, mətbuat materialları əsasında həyata keçirilmişdi [bax: 30 , 384, iqtibas 630].

Beləliklə, Böyük Britaniyadan hərbi dəstək almayan Türkiyə təminatçı dövlət kimi təkbaşına hərəkət etmək fikrinə gəldi və öz qoşunlarını 1974-cü il iyulun 20-də adaya çıxardı [23, 39; 25, 27; 22, 89]. Türk hərbi hissələri Girne bölgəsində Pladini Plajı deyilən ərazidə adaya çıxarıldı. Eyni zamanda türk hava qüvvələrinə məxsus təyyarə və vertolyotlar da Boğaz və Ortaköy bölgələrinə hücum hərəkatına başladılar.

Böyük Britaniya üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək üçün ABŞ-ın köməyinə ehtiyac duyurdu. ABŞ da bu məsələdə Böyük Britaniya ilə əməkdaşlığa can atırdı. “The Guardian” qəzeti onların əlaqəsi barədə məlumat verərək, C.Kallagen və ABŞ-ın dövlət katibi H.Kissincer arasında telefon danışığının olması və söhbətdə Türkiyənin hərbi müdaxilə etməsinə maneçilik törətmək üçün ona maksimum şəkildə təzyiqlər göstərilməsi barədə birgə sərt strategiya işlənib hazırlanmasına dair xəbərləri yaymışdı [18; 11].

Buna cavab olaraq Böyük Britaniya hakim dairələri yalnız bir qanuni hökuməti - prezident Makariosun yaratdığı hökuməti tanıdıqlarını bildirdilər [5]. İngilis diplomatiyası Kiprin statusunu müstəqil dövlət kimi müəyyən edən təminatçı ölkə kimi özünə sərf etdiyi istiqamətlərdə manevrlər edirdi. Kiprli türklər Böyük Britaniyanın bu hərəkətini və toqquşmaların qarşısını almaq üçün Türkiyəyə həmrəy olmadığını haqlı olaraq tənqid etdilər. İngilislərin dəstəyini almayan Türkiyə daha qəti addımlar atmaq məcburiyyətində qalaraq öz qoşunlarını adada yerləşdirdi.

Türk ordusu Nikosiyaya qədər hərəkət etdi. Paytaxtı iki hissəyə böldükdən sonra dayandı. Bu hadisə Kipr tarixinə birinci Barış hərəkatı kimi daxil oldu. Barış hərəkatı ilə birlikdə daha əvvəllər söylənilən Kiprin Taksimi mövzusu felən gerçəkləşdirilmiş oldu [2]. Kipr ayrı-ayrı hakimiyyət altında olan iki icma arasında bölündü [24, 11].

Türkiyənin baş naziri B.Ecevit türk qoşunlarının adaya qurudan və sudan yalnız status-kvonu bərpa etmək məqsədilə çıxarıldığını, Türkiyə hökumətinin bu addımdan sülh naminə son variant kimi istifadə etdiyini bildirdi [10]. Türkiyə hökumətinin hərəkətini alqışlayan R.Denktaş radio ilə Kipr xalqına müraciət etdi: “Türkiyə qoşunları adada kiprli yunanlara deyil, yunan xuntasına qarşı hərbi əməliyyatlar aparmaq üçün gəlmişdir. Biz (yəni türklər - **H.S.**) vətəni müdafiə edirik və bizim qələbəmiz Kiprin istiqlaliyyəti deməkdir” [27].

Türkiyənin adaya çıxarmasının hərbi-strateji təməlləri ilə yanaşı hüquqi-siyasi və mənəvi əsasları vardı. Birincisi, hüquqi-siyasi baxımdan, Türkiyə Kiprin təminatçı dövlətlərindən biri idi. Baş verən qanlı hadisələrin qarşısının alınmasında məsuliyyət daşıyırdı. İkincisi, Kiprin müstəqilliyi və suverenliyinin qorunmasına dair BMT sənədləri mövcud idi. Onların yerinə yetirilməsi də təminatçı dövlətlərin məsuliyyəti hesab edilirdi. Mənəvi baxımdan isə ana vətəni olan Türkiyə yavru vətəndə yaşayan türkləri mühafizə etmək məsuliyyətini daşıyırdı. Kiprli türklər Türkiyəyə nicat gözü kimi baxırdılar. Müdaxilənin yubadılması kiprli türklərin məhvinə gətirərdi. Əslində mövcud şəraitdə Türkiyənin başqa heç bir çıxış yolu da qalmamışdı. Əsrlər boyu üç qitəyə ədalətli hökmranlıq edən, idarə etdiyi torpaqlar üzərində yüksək dünya mədəniyyəti quran, tarixin gedişinə istiqamət verən böyük türk millətinin bir hissəsi fiziki məhv olmaq təhlükəsi qarşısında qalmışdı. Türkiyənin bu işdə güzəştə getməsi və ya seyrçi mövqe tutması hər baxımdan fəlakətli nəticələrə gətirə bilərdi [30, 385].

Barış hərəkatından sonra Ecevit "Kipr fatehi" adını aldı. Ecevit İsmet İnönü və Süleyman Dəmirəlin bacarmadığını böyük cəsarətlə, qətiyyətlə etdi. O, Türkiyənin qərb qarşısında əyilmədiyini göstərdi. Türk millətinin başını aşağı etmədi. Milli ruhunu, özünəinamını gücləndirdi. Türkiyənin Kiprdən çəkilməsi, zəiflik etməsi bu regiondan açıq dənizlərə çıxışını itirməyə gətirəcəkdi. Ölkə hərbi-strateji cəhətdən fəlakətli vəziyyətə düşəcəkdi. Aralıq dənizinin şərq hissəsində tamamilə yeni bir geosiyasi şərait yaranacaqdı. Türk hökumətinin, millətinin və silahlı qüvvələrinin yekdil və qətiyyətli hərəkəti bütün bunlara imkan vermədi. Türkiyə tarixi bir addım atdı. Bu, milli bir zəfər idi [30, 386]. Lakin Türkiyənin bu addımı beynəlxalq aləmdə birmənalı şəkildə qarşılanmadı. Hətta Kiprin təminatçı dövlətlərindən olan Böyük Britaniya da Türkiyəni dəstəkləmədi. İngilislərin adada baş verən hadisələrə biganəliyi və qırğının qarşısının alınmasına cəhd göstərməməsi əslində ingilis hökumətinin yeritdiyi siyasətin ədalətsizliyinə dəlalət edirdi.

1974-cü il iyulun 20-də Böyük Britaniyanın xarici işlər naziri C.Kallagen Yunanıstan səfirinə müraciətində Kiprdə konstitusiya quruluşunun və qanuni hökumətin bərpa edilməsinin vacibliyini vurğuladı. O, eyni zamanda Türkiyə hökumətinin atdığı addımdan narazı olduğunu da qeyd etdi [27].

İyulun 21-də BMT Təhlükəsizlik Şurası adadakı vəziyyət barədə növbəti iclasını keçirdi. İclasda Kipr Respublikasının işlərinə xarici hərbi müdaxilənin dayandırılması və xarici hərbi heyətin uzaqlaşdırılması, o cümlədən Kipr prezidenti Makariosun 1974-cü il 2 iyul tarixli məktubunda tələb olunan heyətin Kipr ərazisindən çıxarılmasını tələb edən 353 saylı qətnamə yekdilliklə qəbul olundu [29].

Qətnamədə deyilirdi: bütün dövlətlər Kiprin suverenliyinə, ərazi bütövlüyünə hörmət etməlidir. Hərbi əməliyyatlarda iştirak edən hər iki tərəf ilk addım kimi tamamilə atəşi dayandırmalı, vəziyyəti gərginləşdirməmək üçün təmkinli olmalıdır; Kipr ərazisinə xarici hərbi müdaxilə dərhal dayandırılma-

lıdır. Xarici hərbi heyət uzaqlaşdırılmalı, o cümlədən Kipr prezidenti Makariosun 1974-cü il 2 iyul tarixli məktubunda adı çəkilən heyət Kipr ərazisindən çıxarılmalıdır [9]. Qətnamədə Böyük Britaniya, Türkiyə və Yunanıstan danışıqlar aparmağa və BMT ilə əməkdaşlıq etməyə çağırılırdı.

Makarios BMT Təhlükəsizlik Şurasının bu qətnaməsini bəyəndi. O, həmçinin qətnamənin "müsbət və konstruktiv elementləri özündə birləşdirdiyini" qeyd edərək Təhlükəsizlik Şurasına təşəkkürünü bildirdi [16]. Yunanıstan isə 650 nəfərdən ibarət hərbi heyətin Kiprdən çıxarılması təklifini qətiyyətlə pislədi və ordusunu adadan çıxarmayacağını qeyd etdi.

1974-cü il iyulun 21-də Kiprdəki hadisələrə dair mətbuat konfransı keçirildi. Konfransda C.Kallagen çıxış edərək Yunanıstan müharibədən çəkindirməyə çalışdı. Çünki yalnız bununla əməliyyatların qarşısını almaq mümkün olardı. O, hətta Londonda Yunanıstan və Türkiyə nümayəndələri arasında danışıqlara başlamağı da təklif etdi. Daha sonra bu danışıqlar Kiprin statusunu müəyyən edən 1960-cı il müqaviləsi çərçivəsində üçtərəfli qaydada davam etdirilməli idi. Kallagenin bildirdiyinə görə, Vaşinqton da yunan və türk tərəfinin nümayəndələrinin Londona gəlməsinə çalışır və hətta onlara bu istiqamətdə təzyiq də göstərirdi [7; 3].

1974-cü il iyulun 22-də BMT Təhlükəsizlik Şurasının Kipr probleminin müzakirəsinə dair növbəti iclası keçirildi. İclasda 354 saylı qərar qəbul edildi. Qətnamədə Kipr Respublikasının suverenliyinə hörmət etməyə çağırılırdı. Təhlükəsizlik Şurası dərhal atəşkəsə riayət etmək üçün hər iki tərəfə müraciət etdi. Elə həmin gün müraciətə uyğun olaraq Türkiyə tərəfindən atəşkəs qəbul edildi. Böyük Britaniya Xarici İşlər Nazirliyinin və ABŞ dövlət departamentinin nümayəndələri atəşkəsin qüvvəyə mindiyini bildirdilər [12].

İyulun 22-də Kiprdə hərbi əməliyyatlar dayandırıldı. Yunanıstanda A.Andruçopulisin rəhbərlik etdiyi hərbi xunta hökuməti ölkə daxilində böhrana, beynəlxalq aləmdə təcridçiliyə düşdüyündən istefaya getdi. Makarios hökumətinə qarşı təşkil olunmuş hərbi xunta Türkiyə silahlı qüvvələrinin hücumları qarşısında tab gətirə bilmədi. Hərbi avantüra iflasa uğradı. Xunta tam şəkildə beynəlxalq təcridə məruz qaldı. N.Samson adadan qovuldu. Hakimiyyətə K.Karamanlis başda olmaqla mülki hökumət gəldi. Yeni prezident səlahiyyətlərini Q.Klerides öz üzərinə götürdü [30, 387; 13]. Q.Klerides Nyu-Yorkdakı BMT qərargahına və Kiprdə sülhü qoruyub saxlayan BMT qüvvələrinin komandanına prezident vəzifəsini müvəqqəti olaraq tutması barədə məlumat verdi. Kiprin Parisdəki səfirliyinin nümayəndəsi Q.Kleridesin bu hərəkətinin Makariosun qayıdışına yol açması istiqamətində müsbət hal saydığını bildirdi [28].

Makarios Q.Kleridesin Kiprin müvəqqəti prezidenti vəzifəsinə başlamasını alqışladı və səlahiyyətlərinin məhz ona həvalə olunmasını düzgün hesab edirdi. Tezliklə, Böyük Britaniyanın da tövsiyəsinə uyğun olaraq R.Denktaş və Q.Klerides arasında problemin həllinə dair icmalararası danışıqlar başlandı.

Kiprdə yaranmış vəziyyətlə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasının növbəti iclası 1974-cü il iyulun 24-də keçirildi. İclasda atəşkəs haqqında qərar qüvvəyə mindikdən sonra ilk beş saat ərzində 29 dəfə pozuntu hallarının olması müzakirə olundu. İclasda çıxış edən BMT Baş katibi K.Valdhaym BMT-nin sülhməramlı qüvvələrinə nəyin bahasına olursa-olsun atəşkəsə nail olmaq əmri verildiyini bildirdi. Yerli əhali arasında qurbanlara yol verməmək üçün ilk növbədə iki tərəf arasında ədavəti aradan qaldırmağın gərəkliyini vurğuladı. Böyük Britaniya xarici işlər naziri C.Kallagen Yunanıstan və Türkiyə hökumətinin Kipr haqqında Böyük Britaniya ilə danışıqlar aparmağa razılıq verməsi barədə məlumatı açıqladı. O, danışıqların tezliklə Cenevrədə keçirilməsi nəzərdə tutulduğunu bildirdi [17].

Beləliklə, təminatçı ölkə olan Böyük Britaniyanın və dünya dövlətlərinin ədalətsizliyə və kiprli yunanların cinayətkar əməllərinə göz yumması və Sürix-London sazişlərinin təminatçısı olaraq tam fəaliyyətsizliyi bağlanmış müqavilələrin həyata keçirilməsi imkanlarını heçə endirərək Kipr türklərini məhv-olma təhlükəsi qarşısında qoydu. Elə bu səbəbdən də Türkiyə qoşunlarının Kiprin şimalında yerləşdiriməsi bütöv bir xalqa qarşı yeridilən soyqırımın qarşısını almaq məqsədilə atılmış bir addım oldu.

Avropa dövlətlərinin və o cümlədən, SSRİ-nin dünya ictimaiyyətinə hərbi müdaxilə kimi təqdim etdiyi bu hadisə fikrimizcə beynəlxalq hüquq normalarına zidd deyildi. Türkiyə adanın Yunanıstana ilhaqını əngəlləməyə, türklərin adada varlığını saxlamağa, Kiprin müstəqilliyini qorumağa, sülh və əmin-amanlığı bərqərar etməyə müvəffəq oldu. Adanın müstəqilliyinə son qoyulması istiqamətindəki bütün planlar və cəhdlər alt-üst edildi, kiprlilərə türklər və yunanlar olaraq, öz talelərinə sahib çıxma hüququ verildi.

Bu illər ərzində Böyük Britaniyanın Kipr siyasəti tam aydın olaraq üzə çıxdı. Bilindiyi kimi, ingilislər Kipr probleminin «beynəlmiləlləşdirilməsi»nə tərəfdar deyildilər. Ümumiyyətlə, Böyük Britaniya öz mənafelərinə zidd olmayan hər bir həlli qəbul etməyə hazır olduğunu dəfələrlə vurğulamışdı [1, 196-197].

Onu da qeyd edək ki, 1974-cü il çevrilişindən sonra baş verən hadisələrdə Böyük Britaniya elə də fəal rol oynamadı. Belə ki, Böyük Britaniya hökuməti Enosisə qarşı çevrilmiş, Kiprin müstəqilliyinə qarşı törədilmiş 1974-cü ilin iyul tarixli çevrilişi adadaxili bir məsələ hesab etdi və məsələyə qarışmamağı üstün tutdu.

Bundan əlavə, Böyük Britaniyanın belə siyasət yürütməsinin özünəməxsus və müxtəlif səbəbləri var idi. İngiltərədə iqtisadi vəziyyət ağır idi. 70-ci illərin əvvəllərindən başlayan dünya iqtisadi böhranı ölkədə sosial-iqtisadi şəraitə mənfi təsir etmişdi. Böyük Britaniya hökumətinin Kipr ilə bağlı müdaxilə edəcəkləri hər bir hadisə Yunanıstanla münasibətlərin pozulmasına gətirib çıxaracaqdı. Bu dövrdə Böyük Britaniya ilə Kipr arasında iqtisadi əlaqələr inkişaf etməkdə idi. Belə ki, Kiprdən ixrac edilən malların bir qismi məhz Böyük Britaniyaya gedirdi. Belə bir vəziyyətdə Böyük Britaniya Türkiyənin

birgə müdaxilə etmək təklfinə qarşı çıxmağa məcbur oldu və passiv, müşahidəçi qismində fəaliyyətini davam etdirməyi üstün bildi. Böyük Britaniya hökuməti Təminat sazişinin maraqlı tərəflərə silahlı müdaxilə hüququnu vermədiyini bəyan etdi. Bununla da adada baş verən hadisələr üçün məsuliyyəti üzərinə götürmədi.

Böyük Britaniya hökuməti Türkiyənin baş naziri B.Ecevitin Kiprin müstəqilliyini qorumaq və pozulan statusu yenidən qurmaq üçün iki təminatçı dövlət kimi birlikdə hərəkətə keçmə təkliflərini rədd etdi, hər şeyi müşahidəçi qismində qəbul etdi. Adadakı müstəqil hərbi bazalarını və onların vasitəçiliyi ilə Orta Şərqdəki ingilis-amerikan mənafelərini qorumaq ingilislərin başlıca marağı idi. Böyük Britaniya bazaları təhlükəyə düşmədiyindən və ingilis mənafelərinə toxunulmadığından onlar yunan zabitlərinin rəhbərliyi altındakı işğalçı ordunun türklərə qarşı törətdiyi hərəkətlərə biganə qaldılar və təminat cavabdehliyini də unutdular. Böyük Britaniyanın Kipr siyasəti Cenevrə danışıqlarında özünü bir daha aydın şəkildə göstərdi.

**ƏDƏBİYYAT**


1. Gazioğlu A.C. Kıbrıs sorunu ve bağımsızlık. Lefkoşa, Cyrep Yayınları, 1986, 399 s.
2. Harun Yahya. Kıbrısta çözüm yolları aranıyor. // A: \ Fikiryazilari _Net.Htm./ http:// www.cypnet co.uk/ncyprus/history/republic /agmt -propexch .html.
3. Olaylarla Türk Dış politikası. Cilt 1 (1919-1973). Beşinci baskı SBF. Ankara, Basın və Yayın Yüksek Okulu Basımevi, 1982, 562 s.
4. Sabahattin İsmail. 150 soruda Kıbrıs sorunu. İstanbul, Kaştaş yayınevi. Zafer matbaası. 1998, 439 s.
5. Аничкин О., Романтсов Ю. В Совете Безопасности. Газ. "Известия", 1974, 21 июля, №169 (17707).
6. Бехтин Ю. Факты изобличают. Газ. "Известия", 1974, 17 июля, №165 (17703).
7. C.Kallagen İngiltərənin mövqeyi haqqında. "Kommunist" qəz., 1974, 22 iyul, №170(15690).
8. Заговор НАТО. К положению на Кипре. Газ. "Известия", 1974, 23 июля, №171(17709).
9. Заседание Совета Безопасности – К положению на Кипре. Газ. "Известия", 1974, 22 июля, №170 (17708).
10. Заявление Советского правительства. Газ. "Известия", 1974, 22 июля, №170 (17708).
11. К положению на Кипре. Газ. "Известия", 1974, 20 июля, №168(17706).
12. К положению на Кипре. Газ., "Известия", 1974, 23 июля, №171(17709).
13. К событиям на Кипре. Обстановка на острове. Газ. "Известия", 1974, 25 июля, №173(17711).
14. Макариос едет в Нью-Йорк. Газ., "Известия", 1974, 18 июля, №165(17703).
15. Матвеев В. "Гневное "нет" путчистам". Газ. "Известия", 1974, 19 июля, №166(17704).
16. Мнение Макариоса.- К положению на Кипре. Газ. "Известия", 1974, 22 июля, №170 (17708).
17. Напряженность на Кипре. Газ. "Известия", 1974, 24 июля, №172(17710).
18. Ожесточенные бои. Прекратить вмешательство во внутренние дела Кипра! Газ. "Известия", 1974, 18 июля, №165(17703).
19. Озабоченность Турции. Газ. "Известия", 1974, 17 июля, №165(17703).
20. Республика Кипр. Газ, "Известия", 1974, 18 июля, №166(17704).

21. Экстренное заседание Совета Безопасности. Прекратить вмешательство во внутренние дела Кипра! Газ. "Известия", 1974, 18 июля, №165(17703).
22. Alemdar Shakir. İnternational aspects of the Cyprus problem – The political sosial and economic development of Northern Cyprus. Edited by C.H.Dodd. England, 1993, 89 p.
23. Gobbi Hugo J. Contemprorary Cyprus. Tel-Aviv, (nəşriyyatsız), 181 p.
24. Northern Cyprus, 1999, 152 p.
25. Osam Ahmet Mustafa. An in enquiry into the nature of impediments to a negotiated settlement on the island of Cyprus between the years 1959-200 AD / Üçüncü uluslararası Kıbrıs Araştırmaları Konqresi, 13-17 Kasım 2000. Cilt.3, s.157-169.
26. Kiprdə vəziyyət. "Kommunist" qəz., 1974, 18 iyul, №166(15686).
27. Kiprdə vəziyyət. "Kommunist" qəz., 1974, 21 iyul, №169(15689).
28. Kiprin yeni prezidenti. "Kommunist" qəz., 1974, 25 iyul, №172(15692).
29. Baybakov B. BMT Təhlükəsizlik Şurasında. "Kommunist" qəz., 20 noyabr 1983, №267(18500).
30. Qasımlı M. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı: Adiloğlu, 2007, 560 s.
31. Makariosun xahişi yerinə yetirilmişdir. "Kommunist" qəz., 1974, 17 iyul, №165 (15685).
32. Təhlükəsizlik Şurasının iclası. "Kommunist" qəz., 1974, 22 iyul, №170(15690).
33. Heydərova S.C. BMT-də Kipr məsələsinin müzakirəsinə dair (1960-70-ci illər). / Aspirantların və gənc tədqiqatçıların XII respublika elmi konfransının materialları. Bakı, 2008, s.154.

## РОЛЬ ДВИЖЕНИЯ ПРИМИРЕНИЯ В СУДЬБЕ КИПРА И ВЕЛИКОБРИТАНИЯ

**С.Дж.ГЕЙДАРОВА**

### РЕЗЮМЕ

Движение Примирения на Кипре началось с введением Турцией на остров военных сил 20 июля 1974 года с целью прекращения, проводимой греками этнической чистки и убийств в отношении турков Кипра. Операция «Движение Примирения», проводимая турецкой армией наряду с обеспечением права проживания кипрских турков на своих исторических землях, фактически привела к разделу острова на две части. Начиная с этого времени, южная часть контролируется греками, северная турками. На «Зеленой полосе» же располагаются миротворческие силы ООН.

**Ключевые слова:** Кипр, ООН, Миротворческое движение, восстание, военная хунта

## THE ROLE OF THE PEACE MOVEMENT İN THE FATE OF CYPRUS AND GREAT BRİTAİN

**S.J.HEYDAROVA**

**SUMMARY**

The peaceful movement on Cyprus began with the military introduction of Turkey to the island on 20 July, 1974 in order to stop ethnic clearings and slaughters commited against the Cyprus Turks. The "Peaceful Movement" operation of the Turkish Army maintained the Tuirks' right to live in their historical lands and division of the island into two parts. Since then the northern part of the island is governed by Turks, whereas the sourthern part is under the control of Greece. The "green boundary" is controlled by the peaceful forces of UN.

**Key words:** Cyprus, UN, peaceful agreements, rebellion, military